«Təsdiq edilmişdir»

“Bakı Fond Birjası” QSC-nin
Müşahidə Şurası
Protokol № 02
“04” iyun 2020-ci il

Müşahidə Şurasının sədri

___________________Y.Məmmədov

# “Bakı Fond Birjası” Qapalı Səhmdar Cəmiyyətinin Listinq Komitəsinin

# ƏSASNAMƏSİ

## 1. Ümumi müddəalar

1.1. Bu Əsasnamə, Azərbaycan Respublikasının "Qiymətli kağızlar bazarı haqqında" Qanununa, Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən qəbul edilmiş normativ xarakterli aktlara, "Bakı Fond Birjası" QSC-nin (bundan sonra Birja adlandırılacaq) nizamnaməsinə və "Bakı Fond Birjasında qiymətli kağızların listinqə daxil olunması, listinqdə saxlanılması, delistinqi və ticarətinin təşkili qaydaları"na (bundan sonra "Listinq qaydaları" adlandırılacaq) əsasən hazırlanmışdır.

1.2. Bu Əsasnamə, Listinq Komitəsinin (bundan sonra Komitə adlandırılacaq) tərkibini, səlahiyyətlərini, hüquq və vəzifələrini, habelə bu əsasnamə ilə müəyyən olunmuş digər funksiyalarnı müəyyən edir.

1.3. Komitə, Birjada daimi fəaliyyət göstərən kollegial orqandır.

1.4. Komitə, Birjanın nəzarət və ya icra orqanları adından çıxış edə və ya qərarlar qəbul edə bilməz.

## 2. Komitənin səlahiyyətləri

2.1. Komitə aşağıdakı səlahiyyətlərə malikdir:
2.1.1. qiymətli kağızların listinqə daxil edilməsi, listinqdə saxlanılması, delistinqinə dair qərarlar qəbul etmək;
2.1.2. qiymətli kağızların ticarətə buraxılması, ticarətdən çıxarılması və "Listinq qaydaları"nda nəzərdə tutulan digər məsələlər barədə qərarlar qəbul etmək;
2.1.3. qiymətli kağızların emitentləri tərəfindən "Listinq qaydaları" ilə müəyyən edilmiş tələblərin yerinə yetirməsinə nəzarət etmək;
2.1.4. "Listinq qaydaları"nın tələbləri pozulduğu halda emitentə qarşı listinq müqaviləsinə uyğun cərimələr və digər təsir tədbirləri tətbiq edilməsinə dair qərar vermək;
2.1.5. qiymətli kağızları, habelə törəmə maliyyə alətlərini qiymətləndirmək və onların ticarətə buraxılmasının məqsədəuyğunluğunu müəyyən etmək;
2.1.6. qiymətli kağızların bir seqmentdən digər seqmentə keçirilməsinə dair qərar qəbul etmək;
2.1.7. listinqin inkişaf etdirilməsi ilə bağlı təkliflər irəli sürmək;
2.1.8. Birjanın icra orqanları üçün məlumat və tövsiyyə xarakterli qərarlar qəbul etmək;
2.1.9. iclaslar zamanı Birjanın digər əməkdaşlarını müzakirələrə cəlb etmək;
2.1.10. ekspert qismində dövlət orqanlarının, kredit və beynəlxalq təşkilatlarının nümayəndələrini cəlb etmək.

2.2. Komitə "Listinq qaydaları" ilə nəzərdə tutulan digər səlahiyyətlərə malikdir.

## 3. Komitənin hüquqları və vəzifələri

3.1. Komitənin hüquqları:

3.1.1. qiymətli kağızların listinqə daxil edilməsi və ya onların listinqə daxil edilməsindən imtina edilməsi;

3.1.2. qiymətli kağızların ticarətə buraxılması, ticarətdən çıxarılması;

3.1.3. listinqdə saxlanılan qiymətli kağızların delistinqinə dair qərar qəbul etmək;

3.1.4. qiymətli kağızların listinqə daxil edilməsi üçün təqdim edilmiş sənədlərdə çatışmazlıqlar aşkar olunduqda, çatışmayan sənədləri tələb etmək;

3.1.5. qiymətli kağızların listinqə daxil edilməsi üçün təqdim edilmiş sənədlərdə çatışmazlıqlar Komitə tərəfindən müəyyən olunmuş müddət ərzində aradan qaldırılmadıqda, qiymətli kağızların listinqə daxil edilməsindən imtina etmək;

3.1.6. məlumatların dəqiqləşdirilməsi və ya müvafiq məsələlərin araşdırılması ilə bağlı Birjanın struktur bölmələrinə yazılı və ya şifahi sorğular vermək;

3.1.7. Komitə və emitentlər arasında yaranan mübahisələrin həll edilməsi üçün Birjanın "Mübahisələrin həll edilməsi komissiyası"na müraciət etmək;

3.1.8. qanunvericilik və "Listinq qaydaları" ilə müəyyən olunmuş digər hüquqlardan istifadə etmək.

3.2. Komitənin vəzifələri:

3.2.1. qanunvericilik və "Listinq qaydaları" ilə müəyyən olunmuş tələblərə riayət etmək;

3.2.2. Birjanın nəzarət və icra orqanlarının sorğularını cavablandırmaq;

3.2.3. Birjanın maraqlarına zidd hərəkətlər və qərarlar qəbul etməmək;

3.2.4. qanunvericilik və Birjanın daxili qaydalarına riayət etmək;

3.2.5. onlara məlum olmuş məxfi məlumatları açıqlamamaq və hər-hansı bir şəxsi məqsədlər üçün istifadə etməmək;

3.2.6. qanunvericilik və "Listinq qaydaları" ilə müəyyən olunmuş digər vəzifələri icra etmək.

## 4. Komitənin tərkibi və formalaşdırılması qaydası

4.1. Komitənin üzvləri Birjanın Müşahidə Şurası tərəfindən seçilir və azad edilir.

4.2. Komitənin tərkibi tək sayda olmaqla, ən azı 3 (üç) üzvdən ibarət formalaşdırılır.

4.3. Komitənin üzvləri təkrar seçilmək hüququna malik olmaqla, Birjanın Müşahidə Şurası tərəfindən 3 (üç) il müddətinə seçilirlər.

4.4. Müşahidə Şurasının müvafiq qərarı istisna olmaqla, digər hallarda Komitədə üzvlük könüllü və ödənişsiz əsaslarla həyata keçirilir.

4.5. Birjanın əməkdaşları, o cümlədən Komitənin üzvlərinin sayının üçdə birindən çox olmamaq şərti ilə hüquq və ya maliyyə sahəsində ən azı 3 (üç) il iş təcrübəsinə malik olan digər fiziki şəxslər Komitəyə üzv seçilə bilərlər.

4.6. Komitənin üzvlərinin səlahiyyətlərinə Birjanın Müşahidə Şurası tərəfindən aşağıdakı hallarda vaxtından əvvəl xitam verə bilər:
4.6.1. istefa verməsi ilə bağlı üzv yazılı qaydada müraciət etdikdə;
4.6.2. vəfat etdikdə;
4.6.3. üzrlü səbəbdən (xəstəliyin olması, ezamiyyətdə olma, ölkə xaricində olma və ya yaxın qohumun vəfat etməsi) iştirak edə bilməməsi istisna olmaqla, Komitənin iclaslarında ardıcıl 3 (üç) dəfə iştirak etmədikdə;
4.6.4. üzvün namizədliyini irəli sürmüş təşkilat yazılı müraciət etdikdə;
4.6.5. fəaliyyətində nöqsənlar aşkar edildikdə.

4.7. Komitənin sədri Müşahidə Şurası tərəfindən üzvlər arasından təyin olunur.

4.8. Komitənin sədri aşağıdakı səlahiyyətlərə malikdir:
4.8.1. Komitənin fəaliyyətinə rəhbərlik edir;
4.8.2. iclasın vaxtını, yerini və gündəliyini təsdiq edir;
4.8.3. iclasa dəvət olunacaq şəxslərin siyahısını müəyyən edir;
4.8.4. iclaslarda sədrlik edir;
4.8.5. iclasların protokollaşdırılmasını təşkil edir;
4.8.6. Komitə üzvləri arasında səlahiyyət bölgüsünü həyata keçirir;
4.8.7. zərurət olduqda təyin edilmiş iclasın keçirilməsini ləğv edir və ya onu başqa vaxta keçirir;
4.8.8. Komitəni Birjanın nəzarət və icra orqanı qarşısında təmsil edir;
4.8.9. Qaydalar ilə müəyyən olunmuş digər səlahiyyətlərə malikdir.

## 5. Komitənin iclaslarının keçirilməsi və qərarların qəbul edilməsi qaydası

5.1. Komitənin iclasları tələb olunduğu hallarda çağırılır.

5.2. Komitənin iclasları Komitənin sədri tərəfindən çağırılır.

5.3. Komitənin iclasları, həmçinin əsaslandırılmış tələb əsasında Komitənin digər üzvləri tərəfindən də çağırıla bilər.

5.4. İclasın keçirilməsi ilə bağlı bildiriş, iclasın təyin edildiyi gündən 3 (üç) iş günündən gec olmayaraq Komitə sədri tərəfindən üzvlərə elektron qaydada göndərilir.

5.5. Bildirişdə iclasın keçirilməsi forması, iclasın yeri, vaxtı, gündəliyi və digər zəruri məlumatlar əksini tapır.

5.6. Komitə sədri tərəfindən başqa qərar qəbul edilməmişdirsə, iclaslar Birjanın yerləşdiyi ünvanda keçirilir.

5.7. Komitənin üzvlərinin yarısından çoxu iştirak etdikdə iclas baş tutmuş hesab edilir.

5.8. Komitənin iclasında sədrlik onun sədri tərəfindən həyata keçirilir. Hər hansı bir iclasda Komitə sədri iştirak edə bilmirsə, həmin iclasın sədri Komitə üzvləri tərəfindən sadə səs çoxluğu ilə seçilir.

5.9. İclasın katibi, iclasda iştirak edən Komitə üzvləri tərəfindən seçilir.

5.10. İclasda iştirak edən bütün şəxslər müzakirə olunan məsələlərə dair materiallarla təmin olunur.

5.11. İclasın gündəliyinə, iclas iştirakçılarının sadə səs çoxluğu ilə bildirişdə qeyd olunmayan məsələlər də əlavə edilə bilər.

5.12. Komitənin qərarları sadə səs çoxluğu ilə qəbul edilir. Səslər bərabər bölündükdə, iclasa sədrlik edən şəxsin səsi həlledicidir.

5.13. Komitənin bütün iclasları protokolaşdırılır və iclasda iştirak edən bütün üzvlər tərəfindən imzalanır.

5.14. Komitə tərəfindən iclasın gündəliyinə hər hansı üzvün maraqlarına toxunan məsələ çıxarıldıqda, həmin üzv bununla bağlı maraqları haqqında ətraflı məlumat verməli və bu məsələnin müzakirəsində iştirak etməməlidir. Bu zaman həmin üzv məsələyə dair səsvermədə iştirak etmir və onun iştirakı yetərsay müəyyən edilərkən nəzərə alınmır.

5.15. Komitənin səlahiyyətlərinə aid edilmiş məsələlər Komitə üzvlərinin yazılı qaydada səslərinin yığılması yolu ilə həll edilə bilər. Bu zaman Komitə üzvlərinin iclasda fiziki olaraq iştirakı tələb olunmur. Səsvermə yazılı qaydada keçirildikdə, Komitənin sədri, Komitənin üzvlərinə səsvermə bülletenini göndərir. Səsvermə bülletenində, Birjanın tam adı, müzakirəyə çıxarılmış məsələ, qərarın layihəsi, səsvermənin son tarixi, səsvermə bülleteninin geri göndəriləcəyi ünvan əksini tapmalıdır. Səsvermə bülletenində əksini tapmış məsələyə dair bütün sənədlər və məlumatlar əlavə olunmalıdır. Səsvermə “lehinə”, “əleyhinə” olmaqla və ya “bitərəf” qalmaqla baş tutmuş hesab olunur. Səsvermənin nəticələri üzrə iclasının protokolunu tərtib edilir və müvafiq qaydada təsdiqlənir.

5.16. İclasın protokolu ən geci 2 (iki) iş günü ərzində iclasın katibi tərəfindən tərtib edilir.

5.17. Protokolda aşağıdakı məlumatlar əksini tapır:
5.17.1. iclasın vaxtı və keçirildiyi yer;
5.17.2. iclasın iştirakçılarının siyahısı;
5.17.3. iclasın gündəliyi;
5.17.4. çıxışların xülasəsi;
5.17.5. səsverməyə təklif olunan məsələlər;
5.17.6. qəbul olunmuş qərarlar.

5.18. İclasın materialları protokola əlavə edilir və Birjanın müvafiq struktur bölməsində saxlanılır.

5.19. Komitənin qərarları Azərbaycan Respublikasının qanunvericiliyinə və Birja qaydalarına uyğun olaraq Birjanın internet səhifəsində açıqlanır.

## 6. Yekun müddəalar

6.1. Bu Əsasnaməyə dəyişikliklər və əlavələr barədə qərar Birjanın Müşahidə Şurası tərəfindən qəbul edilir.

6.2. Bu Əsasnamə ilə tənzimlənməyən məsələlər, Azərbaycan Respublikasının qanunvericiliyi və "Listinq qaydaları" ilə tənzimlənir.

6.3. Bu Əsasnamə təsdiq edildiyi tarixdən etibarən qüvvəyə minir.